**UDC:** 297.;159.9.
**LBC:** 88.4; 88.5
**MJ №** 231
10.33864/2617-751X.2024.v7.i3.201-213

# A Brief Review of Studies on the Nafs al-Lawwama Level from the Point of View of Islamic Psychology

**Aytekin Jafarova***
**Irada Taghiyeva****

**Abstract.** In the realm of human creation and characteristics, human beings possess various emotions and thoughts. The concept of the self (nafs) is one of these. Examining the levels of the self does not mean that the self carries multiple meanings. The levels of the self reflect the stages of a person's approach to God. This article explores the second level of the self, known as the self-reproaching self (nafs al-lawwama), and its place in human psychology.

In the world of Sufism, the concept of the self has a single meaning. However, considering the stages, it has been analyzed in seven levels (the commanding self, the self-reproaching self, the inspired self, the contented self, the pleasing self, the contented and pleased self, and the perfected self). These perspectives on the self in Sufism have also become a current research topic in the field of religious psychology. The concept of the self differs in meaning between Western and Islamic worlds. While Western scholars address the self in conjunction with some psychological concepts, in Islamic thought, the self is examined both in conjunction with psychological concepts and independently. The focus of this research is the self-reproaching self (nafs al-lawwama) and its approach in human psychology, based on scholars' opinions. Research Method: This study utilizes works, opinions, and theories related to this topic. The significance of the study lies in examining approaches to human psychology in the self-reproaching self (nafs al-lawwama), reviewing relevant research, and providing a source for future studies. The aim of the research is to understand how the psychological state of a person changes in the stage of the self-reproaching self and to review opinions and studies on this subject.

**Keywords:** self, lawwama, psychology, nafs al-lawwama, psychology of self.

---

* Master's student of "Psychology of Religion" at the Azerbaijan Institute of Theology; Baku Azerbaijan (corresponding author)
E-mail: aytekincafar@gmail.com
https://orcid.org/0000-0002-1504-8352
** Doctor of Philosophy (Ph.D),
Teacher of the Theology Institute of Azerbaijan; Baku, Azerbaijan
E-mail: iradatagiyeva@ait.edu.az
https://orcid.org/0009-0002-0115-2017

**To cite this article:** Jafarova, A., & Taghiyeva, I. [2024]. A Brief Review of Studies on the Nafs al-Lawwama Level from the Point of View of Islamic Psychology. *“Metafizika” journal, 7(3),* pp.201-213.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.201-213

**Article history:**
*Received: 31.05.2024*
*Accepted: 29.07.2024*

**УДК:** 297.;159.9.
**ББК:** 88.4; 88.5
**MJ №** 231
10.33864/2617-751X.2024.v7.i3.201-213

# Краткий обзор исследований пола нафси-лавама с точки зрения исламской психологии

**Айтекин Джафарова***
**Ирада Тагиева****

**Абстракт.** Человек- существо с разными чувствами и мыслями в соответствии с его творением и особенностями в человеческом мире. Нафс – один из них. Взятие понятия души с точки зрения не означает, что душа имеет несколько разных значений. Этажи души включают стадии души, приближения человека к Богу. В данной статье развиты исследования о нафси-лаваме, втором из семи слоев души, и ее месте в психологии человека.

В мире суфизма понятие «я» имеет только одно значение. Однако с учетом этапов было захвачено семь этажей (Аммара, Лавама, Мухима, Мутмаинна, Разия, Марзия, Камила). Эти подходы к человеческой душе в суфизме стали одной из актуальных тем исследований в области религиозной психологии. На Западе понятие «я» имеет разные значения, а в исламском мире оно имеет разные значения. Хотя западные ученые рассматривают душу вместе с некоторыми концепциями психологии, в исламской мысли душа изучается как отдельно, так и вместе с концепциями психологии. В качестве объекта исследования за основу был взят подход исследования психологии человека и мнения ученых. Метод исследования: В исследовании были использованы проведенное исследование, идеи и теории, проведенные в этом отношении. Важность исследования заключается в том, что подходы к психологии человека в самоприложении были рассмотрены, исследования в этом направлении уточнены и стали источником для дальнейших исследований. Цель исследования - проанализировать, как меняется душевное состояние человека на полу души-придатка, а также идеи и исследования по этому поводу.

**Ключевые слова:** самость, клизма, психология, самоклизма, психология самого себя

---

* Магистрант кафедры «Психология религии» Азербайджанского института теологии; Баку Азербайджан (ответственный автор)
E-mail: aytekincafar@gmail.com
https://orcid.org/0000-0002-1504-8352
** Доктор философии по философии,
Преподаватель Азербайджанского института теологии; Баку, Азербайджан
E-mail: iradatagiyeva@ait.edu.az
https://orcid.org/0009-0002-0115-2017

**Цитировать статью:** Джафарова, А., & Тагиева, И. [2024]. Краткий обзор исследований пола нафси-лавама с точки зрения исламской психологии. *Журнал «Metafizika», 7(3),* с.201-213.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.201-213

**История статьи:**
*Статья поступила в редакцию: 31.05.2024*
*Отправлена на доработку: 28.06.2024*
*Принята для печати: 29.07.2024*

**UOT:** 297.;159.9.
**KBT:** 88.4; 88.5
**MJ №** 231
10.33864/2617-751X.2024.v7.i3.201-213

# İslam psixologiyası baxımından nəfsi-ləvvamə mərtəbəsinə tədqiqatlar üzərindən qısa baxış

**Aytəkin Cəfərova***
**İradə Tağıyeva****

**Abstrakt.** İnsan bəşər aləmində yaradılışı və xüsusiyyətləri etibarilə müxtəlif duyğu və düşüncələrə sahib bir varlıqdır. Nəfs də bunlardan biridir. Nəfs qavramının mərtəbələr baxımdan ələ alınması o deməl deyil ki, nəfs bir neçə fərqli anlamı daşıyır. Nəfsin mərtəbələri nəfsin, insanın Tanrıya yaxınlaşmasının mərhələlərini özündə ehtiva edir. Bu məqalədə nəfsin yeddi mərtəbəsindən ikincisi olan nəfsi-ləvvamə və onun insan psixologiyasında yeri haqqındakı tədqiqatlar incələnmişdir.

Təsəvvüf dünyasında nəfs qavramı bir tək mənanı daşıyır. Lakin mərhələləri nəzərə alınaraq yeddi mərtəbə (əmmarə, ləvvamə, mülhimə, mutməinnə, raziyyə, mərziyyə, kamilə) ələ alınmışdır. Təsəvvüfdə insan nəfsi ilə bağlı ortaya qoyulan bu yanaşmalar, din psixologiyası sahəsində də aktual araşdırma mövzularından biri olmuşdur. Qərbdə nəfs qavramı fərqli, İslam dünyasında isə fərqli mənalara sahibdir. Qərb alimləri nəfsi, psixologiyanın bəzi anlayışları ilə birgə ələ alsa da, İslam düşüncəsində nəfs, psixologiyadakı qavramlarla birgəliyi ilə yanaşı həmçinin müstəqil olaraq da incələnməkdədir. Tədqiqatın obyekti olaraq, nəfsi-ləvvamədə insan psixologiyasına araşdırmaların yanaşması və alimlərin fikirləri əsas alınmışdır. Tədqiqatın metodu: Tədqiqatda bu üzrə aparılmış çalışma, fikir və nəzəriyyələrdən istifadə edilmişdir. Çalışmanın əhəmiyyəti bundan ibarətdir ki, nəfsi-ləvvamədəki insan psixologiyasına yanaşmalar araşdırılmış, bu yöndə tədqiqatlar incələnmiş və növbəti çalışmalar üçün mənbə olmuşdur. Tədqiqatın məqsədi, nəfsi-ləvvamədə mərtəbəsində insanın ruh halının necə dəyişdiyi və bu üzrə fikirlər, tədqiqatların incələnməsidir.

**Açar sözlər:** nəfs, ləvvamə, psixologiya, nəfsi-ləvvamə, nəfs psixologiyası

* Azərbaycan İlahiyyat İnstitutunun “Dinin psixologiyası ixtisası” üzrə magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: aytekincafar@gmail.com
https://orcid.org/0000-0002-1504-8352
** Fəlsəfə üzrə fəlsəfə doktoru,
Azərbaycan İlahiyyat İnstitutunun müəllimi; Bakı, Azərbaycan
E-mail: iradatagiyeva@ait.edu.az
https://orcid.org/0009-0002-0115-2017

**Məqaləyə istinad:** Cəfərova, A., & Tağıyeva, İ. [2024] İslam psixologiyası baxımından nəfsi-ləvvamə mərtəbəsinə tədqiqatlar üzərindən qısa baxış. *“Metafizika” jurnalı, 7*(3), səh.201-213.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.201-213

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 31.05.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 28.06.2024*
*Çapa qəbul edilmişdir: 29.07.2024*

## 1.Giriş

İnsan bir varlıq olaraq təsəvvüf, psixologiya və sosiologiya üçlüyünün içində bir birliyə sahibdir. Psixoloji və sosial cəmiyyətin yetişdirdiyi insan təsəvvüf dünyasında mənəvi olaraq başqa bir hal içində olur. Təsəvvüfdə nəfslə bağlı yeddi mərtəbəsindən bəhs edilir. Qaynaqlara görə, nəfsin mərtəbələrinin ilk dəfə təsnifatlandırılması Cüneyd Bağdadiyə aiddir. Lakin Bağdadi nəfsi beş mərhələyə ayırmışdır. Bundan fərqli olaraq Hakim Tirmizi və Əşrəfoğlu Rumi kimi sufilər, əmmarə, ləvvamə, mülhimə, mutməinnə şəklində dördlüyü, İmam Qəzzali, İbn Ataullah İskəndəri, Raqib əl-İsfahani, Nəcməddin Kübra və Şəhabəddin Sührəverdi kimi sufilər isə əmmarə, ləvvamə, mutməinnə olaraq nəfsin mərtəbələrini üçlük təsnifatı formasında qəbul etdilər. Lakin onlar da, ilk növbədə yeddiqat təsnifatı əsas almışdılar.

Nəfsin mərtəbələrindən ikincisi olan nəfsi-ləvvamə özünü qınayan, tənqid edən, danlayan nəfs deməkdir. Onun əmri tam itirilməsə də, bəzən peşmançılıq hissi keçirir, sahibini itirir. İnsanları qadağalara yönəldərək məzəmmət edən, bəzən onları xeyirxah işlərə sövq edən bir nəfs mərhələsidir. Həmçinin pıçıldayan ruh deməkdir. Bu mərhələdə fədainin ruhu şərdən xeyirə dəyişir. Keçmişə qayıtmaq istəyi yaranır və əvvəlki pis əməllərə görə özünü qınamaq meydana gəlir və ya başlayır.

Bu məqalədə nəfsi-ləvvamə mərhələsi, onun psixoloji xüsusiyyətləri, Qurani-Kərimdəki yeri və mövzu ilə bağlı klassik və müasir alimlərin fikirləri ələ alınmışdır.

## 2.Tərifi və terminologiyası

Nəfs dedikdə, ağıla daha çox insanda bütünləşmiş mənfi xüsusiyyət və duyğulara yol açan qavram gələ bilir. Lakin bu anlayışla yanaşı, bunun əksini deyən alimlərimiz də vardır. Necə ki, bəzi İslam alimlərinə görə, nəfs insandakı sadəcə neqativliyi ifadə edir fikrinə qarşı bəzi alimlərimiz isə, nəfsi həm müsbət, həm də mənfilikləri özündə cəm edən anlayış kimi tərif etmişlər.

Nəfsin tərifini Süleyman Uludağ belə vermişdir: nəfs, insanın özü, özəyi, pis xüsusiyyətlərin və aşağı səviyyəli arzu/istəklərin qaynağı anlamına gələn bir termindir. Lüğətdə "ruh, can, həyat, həyatın əsası, nəfəs, varlıq, zat, insan, adam, həva və həvəs, qan, bədən, bədəndən qaynaqlanan zəif arzular" kimi mənalara gələn nəfs kəliməsi Qurani-Kərimdə "ruh" anlamında istifadə edildiyi kimi "zat və öz varlıq" mənasında da işlədilmişdir [Uludağ, s.526].

Bildiyimiz kimi nəfsin, təsəvvüf alimlərinə görə əsasən yeddi mərtəbəsi vardır ki, bunlar da birlikdə ətvar-ı səba adlanırlar. Bu nəfsi-əmmarə, nəfsi-ləvvamə, nəfsi-mülhəmə, nəfsi-mutmainnə, nəfsi-raziyyə, nəfsi-mərziyyə və nəfsi-kamilə mərhələləridir. Hansı ki, nəfsini tərbiyə edən şəxs bu mərtəbələrin hər birindən öz tələblərinə uyğun olan əməlləri yerinə yetirərək

digər mərhələyə keçə bilər. Hər mərhələnin də öz anlam və mənaları, zikr və ibadətləri var. Əlbəttə, bunlarla yanaşı mövzu insana xüsusilə xitab etdiyindən psixologiya elmi ilə də birbaşa əlaqəlidir. Bu məqaləmizdə nəfsin ikinci mərtəbəsi olan nəfsi-ləvvaməni psixoloji baxımdan incələməyə çalışacaq və bu yöndə aparılan çalışmalara nəzər yetirəcəyik.

Nəfsi-ləvvaməyə gəldikdə, ləvvamə yəni “ləvm etmək”, qınamaq və ayıblamaq anlamında ərəbcə ifadədir [Heyət, s.94]. Bu mərhələdə nəfs günahlarından dolayı özünü qınayar, tövbə edər, peşmanlıq duyğusu içərisində olar. Şəxs nəfsi-əmmarədəki halından nəfsini qınayaraq, Allahın buruyuqlarına doğru əməl etmədiyindən günah və xətalarını anlayaraq ondan çəkinib şiddətli tövbə edər. Lakin bunlarla yanaşı yenə də bu mərhələdə narahatlıq, peşmançılıq duyğusundan tam qurtula bilməz, bu hisslər davam edər.

Ümumən nəfsi-ləvvamə mərtəbəsi təsəvvüf dünyasında özünü qınayan nəfs olaraq bilinər. Bununla əlaqəli Qurani-Kərimdəki ayə əsas alınır. Növbəti başlıqlarda buna daha ətraflı nəzər salacağıq.

**3.Məqsədi**

İnsan elə yaradılıb ki, fərqli nəfsləri özündə cəm edir. Bunlar İslam alimlərinə görə müəyyən olunan mərhələlərdir ki, fərd o mərtəbələri keçmədən kamilliyə çata bilməz. Nəfsi-ləvvamədə insan onu pisliyə tərəf çəkən nəfsi-əmmarə mərhələsindən bir parça da olsa təmizlənmiş, özünü qınayır, etdiyi yanlış və xətalarından peşman olmuşdur. Təsəvvüfi yöndən desək, bir parça qəlbin nuru ilə nurlanmış, o nur ölçüsü qədər dəyər qazanmışdır. Burada salikin canında, ruhunda özünü pisliklərdən çəkindirmə və yaxşılıqlar etməyə doğru istək yaranar. Nəfs özünü tanımağa başlayar, pis/yaxşı tərəflərinin fərqinə varmaqda ilk mərhələdədir və bununla da yaxşı yönlərini artırmağa can atar. Lakin yenə də günahlarından tam saflaşıb təmizlənə bilməmişdir və peşmançılığı davam edir.

Nəfsi-ləvvamə mərtəbəsinin məqsədi saliki əmmarənin xüsusiyyətlərinə sahib olmaqdan qurtarmaqdır. Ancaq əlbəttə bilirik ki, bu hələ son deyil və qarşıda keçilməsi lazımlı daha beş mərhələ var. Ləvvamə müddətində salik bu mərtəbənin özünəməxsus zikr və ibadətləri ilə təmizlənir, lakin əmmarənin xüsusiyyətlərini hələ də daşımaqdadır. Burada əsas məqsəd saliki bir parça da olsa, əmmarədən uzaqlaşdırmaq və növbəti mərhələyə hazırlamaqdır.

**4.Nəfsi-ləvvamənin psixolojik xüsusiyyətləri**

Ümumiyyətlə daha geniş ələ alsaq, nəfs psixologiyası insanı ətraf-aləmlə, onu öz təbiətinə xas halı ilə, olduğu haldan daha üstün hala çevirmək xüsusiyyəti daşıyır. Nəfs psixologiyasında fərdin qəlb, ruh, zehin, davranış və nəfs qarşılıqlı əlaqəsi içərisində ən üstün mərtəbəyə, yəni kamilliyə çatdırmaq

hədəflənir. Nəfs psixologiyası dedikdə, təbii ki, nəfsin yeddi mərtəbəsi cəm halında zikr edilir. Biz isə əsasən nəfsi-ləvvamə mərhələsində insan psixologiyası ilə maraqlanacağıq.

Nəfsi-ləvvamədə bildiyimiz kimi insan Allahın əmr və qadağalarına uyğun olmayan davranışlarından utanmağa başlayır, xətalarının, etdiklərinin fərqindədir və günahlarından tövbə etmə mərhələsindədir. Burada əsas diqqət edəcəyimiz məsələ özünü qınayan nəfsin bu mərhələdə özünü necə hiss etdiyidir. Peşmanlıq duyğusunun gətirdiyi o üzüntü anını, özünü aciz bilmə hissini araşdıracağıq.

Deməli, yanlışının fərqində olan şəxs bilirik ki, kədər halı içərisində olur. Özünü boşluqda hiss edə bilir. Yalnız olduğunu düşünür və bu normal haldır. Lakin biz buna sadəcə psixoloji baxış deyil, eyni zamanda İslam və təsəvvüf psixologiyası pəncərəsindən, xüsusilə də nəfs psixologiyası gözündən baxmağa çalışacağıq. Mömin bir şəxsin özünü günahkar hiss etməsinin bir və əsas səbəbi də, Allah qarşısındakı vəzifələrini doğru icra etməməsindən qaynaqlanmaqdadır. Bu isə onda kədərə və üzüntüyə səbəb olur. Nəfsi-ləvvamənin psixolojik xüsusiyyətləri içərisində əsas ələ alınan məsələlər bunlardır: günahkarlıq, peşmançılıq, özünü qınama, səhvlərinin fərqində olub buna görə acı çəkmək vəs. [Mehmet Şirin Ayiş, s.552].

Nəfsi-ləvvamədə günahkarlıq duyğusuna səbəb olan alt amilləri də belə sıralaya bilərik: dini məsuliyyətlərimizi yerinə gətirə bilməmək, Allahın əmr və qadağaları qarşısında xəta etmək və beləliklə xəyal qırıqlığı yaşamaq, başqalarına zərər vermək və qul haqqına girməyin gətirdiyi günahkarlıq duyğusu, son olaraq bir mömin kimi özümüzlə olan sərhədlərimizi aşmaq və özməsuliyyətimizi, özümüzə olan inamımızı itirmək [Özdemir, Düzgüner, 2020, 504].

Əvvəlcə dini məsuliyyətlərimizi yerinə yetirə bilməməyin gətirdiyi günahkarlıq duyğusuna nəzər salaq. Burada mömin özünü bir qul, bəndə kimi yetərsiz hiss edir və inancının gərəyi olaraq lazımi ehtiyaclarını, boynuna düşən məsuliyyətlərini ödəyə bilmir. Bu da nəfsi-ləvvamə mərtəbəsinin özək hissələrindən birini təşkil edir ki, olmalı olanda elə budur. Salik bu mərhələni müəyyən zikr və ibadətlərlə tamamlamağa çalışar ki, növbəti mərhələyə keçə bilsin.

İkinci amil Allahın əmr və qadağaları qarşısında xəta etmək və bununla da xəyal qırıqlığına uğramaqdır. Salik Allahın əmrlərinə uymaqda yanlışlar etdiyindən özünü günahkar hiss edər və bu zaman ona yolda yön göstərəcək hislərlə qarşılaşar. Bu yanlışlara səbəb isə bir çox faktor ola bilər. Kültür, ailə, olduğumuz mühit, bəlkə sadəcə özümüzün gəldiyimiz nöqtə, sosial münasibətlər daxilindəki hər amil səbəb olaraq göstərilə bilər. İbadətləri zamanında yerinə yetirməmək əlbəttə əsas amildir. Çünki bu zaman mömin

Allaha xeyirli bəndə olmadığı düşüncəsində olar. Daha doğrusu, nəfsi-ləvvamədə bu duyğunu yaşamasının fərqindəliyini qazanar. Nəfsi-əmmarə ilə nəfsi-ləvvaməni əsas fərqləndirən cəhət də elə budur.

Üçüncü səbəbimiz, başqalarına zərər vermək və qul haqqına girməyin gətirdiyi günahkarlıq duyğusudur. Biraz öncə özümüz və Yaradanla olan münasibətimizdən meydana gələn günahkarlıq hissindən bəhs etdik. İndi isə xarici amillərdən olan başqaları üzərindən keçirtdiyimiz günahkarlıq duyğusundan danışacağıq. Salik əvvəl özünü deyil, ilk olaraq Allahla olan münasibətini və sonra ətrafını düşünər. Belə də deyə bilərik ki, qulla arası yaxşı olmayanın Yaradanla da münasibəti yaxşı olmaz, Yaradanla arası yaxşı olmayanın da qulla arası yaxşı ola bilməz. Bunlar bir-birinə bağlı zəncir kimidir. Çünki bilirik ki, dinimizdə qul haqqına xüsusi önəm verilmişdir. Bu səbəbdən qul haqqına girməmək İslamda önəmli yerə sahibdir. Bununla bağlı Qurani-Kərimdə də bir neçə ayədə bəhs edilir. Bunlardan biri də Hucurat surəsi 12-ci ayədir ki, belə buyrulur:

*“Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi?*”

Sonuncu amil isə, bir mömin kimi özümüzlə olan sərhədlərimizi aşmaq və özməsuliyyətimizi, özümüzə olan inamımızı itirməkdir. Allah qarşısında bəndənin əmr və qadağalarına uymamasından bəhs edərkən unutmaq olmaz ki, insan əvvəl özünü tanımalı, kəşf etməlidir. Özünə inanmalı, məsuliyyətlərinin fərqində olmalı və özünü ən yaxşı ola biləcəyi nöqtəyə gətirmək üçün çalışmalıdır. Yunis Əmrə Həzrətlərinin də dediyi kimi:

*“Elm, elm bilməkdir, elm özünü bilməkdir.*
*Sən özünü bilməzsən, ya necə oxumaqdır.”*

Burada elm insanın sadəcə yeni biliklərə yiyələnməsi deyil, əsl elmin insanın özünü tanıyıb bilməsi, kəşf etməsidir. Belə deyə bilərik ki, nəfs psixologiyası insanı ən kamil dərəcəyə çatdırmaq üçündür. Yəni, insanın özünü tanıması ilə başlayıb Rəbbini tanımasına gedən yolda ən üstün mövqeyə varmaqdır. Nəfsi-ləvvamə mərhələsi isə, bu yolda ən mühim mərtəbələrdən biridir. Hətta dönüş nöqtəsidir ki, salik bu mərhələdə yanlışının fərqinə varar və günahlarından təmizlənmək istəyər.

Nəfsi-ləvvamə mərtəbəsində peşmanlıq duyğusunun gətirdiyi psixoloji hallar da önəmli faktorları özündə cəm edir. Peşmanlıq duyğusu yaşayan salik bu yolda növbəti mərhələ üçün zəmin hazırlamış olur. Bu hislə bəndə etdiyi bir işdən, xətasından ötrü kədərlənir, dərin üzüntü keçirir. Lakin bu peşmanlıq qısamüddətli, keçmişyönlü, gələcəkyönlü və ya etdiyimiz, ya da edə bilmədiyimiz fəaliyyətlərə qarşı da müxtəliflik göstərə bilir. Keçmiş

günahlarımız, gələcəkdə davam edəcəyini düşündüyümüz xətalarımız da peşmançılıq hissini yaşamağımıza səbəbiyyət verə bilər.

Nida Özdemir və Sevde Düzgüner məqalələrində peşmanlıqla əlaqəli belə bir tədqiqatı qeyd edirlər:

*“Peşmanlıqla bağlı çoxlu araşdırmalar aparan Zeelenberg peşmanlığı “fərqli davransaq, vəziyyətin daha yaxşı olacağını düşündüyümüz və ya dərk etdiyimiz zaman hiss etdiyimiz mənfilik vəziyyəti” olaraq təyin edir. Peşmanlıq termini Psixologiya Lüğətində “ümumiyyətlə keçmiş davranışın insan bunu fərqli etsəydi və ya hadisələr fərqli inkişaf etsəydi, daha yaxşı ola biləcəyi hissi” olaraq təyin edilmişdir.”[Özdemir Düzgüner, s.505].*

Nəfsi-ləvvamə mərhələsi nəfs psixologiyasında əsasən özünü qınayan nəfs olaraq bilinir və İslam alimləri tərəfindən də bu cür tərif edilir. Salik kamillik yolunun bu mərhələsində günah və xətalarından dolayı özünü qınayır, acizliyini Allah qarşısında dilə gətirir, ətraf-aləm/dünya gözündə adiləşir, lakin hələ də tam bunlardan qurtula bilməmiş və nəfs-əmmarənin xüsusiyyətlərini daşımaqdadır.

Səhvlərinin fərqində olub buna görə acı çəkmək də, nəfs psixologiyasının bir mərtəbəsi olan nəfsi-ləvvamədə yaşanır. Əslində günahkarlıq duyğusu içərisində də, elə xətalarını görüb bunun acısı ilə can çəkmək vardır. Bəndə Allahın hüzurunda özünü günah girdabında hiss edər. Xətalarının fərqində olub bunu düzəltməyə çalışması əsas işarədir. Nəfsi-ləvvamə psixologiyasının təməli elə özünü qınayan, hesaba çəkən nəfslə, günahkarlıq duyan nəfsdir. Burada əsas psixoloji dəlil isə, salikin əmmarədəki kimi gözünün pərdəli olması deyil, artıq etdiklərinin fərqində olması və beləliklə məsuliyyətini bilərək düzəlməyə can atmasıdır.

**5.Qurani-Kərimdə nəfsi-ləvvamə anlayışı**

İslam alimləri hər zaman qavramlar üzərindən tədqiqat apararkən, anlayışları araşdırarkən onunla bağlı ayə və hədislərə xüsusilə nəzər yetirib əsərlərində yer verirlər. Biz də nəfsi-ləvvamə mövzusunu araşdırarkən ayə və hədislərə müraciət etdik.

Bildiyimiz kimi nəfsi-ləvvamə mərtəbəsi ilə əlaqəli əsas Qurani-Kərim ayəsi əl-Qiyamət surəsinin insanların əməllərində Allahın əmrlərinə itaət və saleh əməllərin çoxalması müşahidə edilir. Əməllərinin çox hissəsi Allah üçündür. Ancaq ilahi ilhamlara tam olaraq qovuşmadıqları üçün işlədikləri saleh əməllərin xalq tərəfindən bilinməsini arzu edərlər. Yəni nəfsi-əmmarənin bəzi pis xüsusiyyətləri davam etməkdədir. Lakin buna baxmayaraq özünü qınamaqdadır.

Nəfsin sahib olduğu bu mərhələnin adı, Qurani-Kərimdəki: ***“And içirəm** (günah etdiyi üçün, yaxud yaxşı əməli azdır deyə)* ***özünü qınayan nəfsə!”*** ayəsində bildirilmişdir [Qurani-Kərim, Qiyamət surəsi, ayə 2].

İnsanın öz nəfsini şiddətlə qınaması sadəcə sözdə olsa, istədiyi nəticəni əldə etməsinin mümkün olmadığı aşıq-aşkar bilinir. Belə ki, “ləvvamə” və “əmmarə” mərtəbələri arasında həssas və incə bir sərhəd vardır. İnsan, nəfsini qınaması səbəbilə özündə kibir hiss edirsə orada hələ də gizli olaraq nəfsi-əmmarənin izləri davam edir.

Tövbədə davamlı olub pis əməllərdən uzaqlaşmaq, ancaq mənəvi tərbiyə ilə mümkündür. Ləvvamə mərəbəsində olan nəfs, əgər mənəvi tərbiyə nəzarətində və saleh insanlarla bərabər olarsa pis xüsusiyyətlərdən xilas olar. Fürsət düşsə eyni günahı təkrar etməz. Ancaq qəlbdə həsəd, kin, qürur kimi bəzi pis xüsusiyyətlər qalar.

Eyni zamanda bu mərtbədə olan bir insan, Allahı zikr etməyə davam edərək qəlbini Allah sevgisinin nuruyla aydınlatmağa səy göstərməlidir [Heyət, s.96].

**6.Klassik alimlərin fikirləri**

Bir çox adlarla zikr edilməsi, nəfsin çoxhəqiqətli, birdən çox olduğu mənasına gəlmir. Belə ki, nəfs çox həqiqətli deyil, tək bir həqiqətə malikdir. Fərqli isimlərlə qeyd olunma səbəbi sifətlərdə, xüsusiyyətlərdəki müxtəliflikdir. Nəfs tamamilə Haqqa yönəldiyi vaxt - “nəfsi mütməinnə”, bəşəri təbiətə üz tutduğu zaman “nəfsi əmmarə”, bəzən Haqqa bəzən də nəfsə yönəldiyində də “nəfsi ləvvamə” adını alır [Bursəvi, s.284].

Nəfsi ləvvamə Haqqa təqva ilə, bəşəri təbiətə isə günahlarla yönəlir [Bursəvi, s.338].

Məlumdur ki, təsəvvüf tərbiyəsində mənəvi səfərdə olan salikin yuxularının interpretasiyası, yozumu (təbir) çox mühüm yer tutur. Sufilər ən çox yozuma ehtiyac duyanların nəfsi-əmmarə və nəfsi-ləvvamə sahibləri olduğunu deyirlər. Çünki haqqani ilhamlar alan nəfsi-mülhimə sahibi salikin bu mərtəbədə təbirə ehtiyacı azalır [Bursəvi, s.406].

**7.Müasir alimlərin fikirləri**

Nəfsi-ləvvamə məfhumunu bəzi tədqiqatçılar psixoanalizdəki superoqo və Yunqun təlimində fərdin öz kölgəsini tərk etməsi halı ilə uyğunlaşdırmağa çalışmışlardır [Tuncay Aksöz, s.36].

Müasir tədqiqatçılardan Malik Bədri əmmarə və ləvvaməni Freyd nəzəriyyəsindəki id, eqo, supereqo kimi məfhumlarla açıqlanmasını məqbul hesab etmir [Tuncay Aksöz, s.35].

Sufi terminologiyasını modern psixologiyanın terminləri ilə izah etməyə çalışan Frager əsərində nəfsi-ləvvamənin diaqramına yer verir. Müəllifə görə nəfsin bu mərhələsində psixenin oval modelindəki, psixenin mənəvi yönlərini

ayıran maneə burada incəlməyə başlayır. Təhtəlşüurun ziyası şüurumuza daxil olduqca, özümüz və nöqsanlarımız haqqında bizdə daha aydın mənzərə formalaşır. Altmənliyin dürtüləri artıq tez bir zamanda fərq edilərək neytrallaşdırılmağı mümkün hala gəlsə də, yenə də təhtəlşüurdan gələn impulslar varlığını davam etdirir. Eqonun təkəbbürü öz yerində qalmaqdadır [Robert Frager, s.88].

**8.Nəticə**

Müasir dövrdə dünyada sufi praktikası və onun intellektual irsinə istinad edərək modern psixologiya ilə müqayisələr aparılmaqdadır. Bu müqayisələri istər akademik mühitdə istərsə də populyar sferada, ələlxüsus fərdi inkişafa dair nəşrlərdə, seminarlarda görmək mümkündür. Məqalədə tədqiq etməyə çalışdığımız nəfsi-ləvvamə məfhumu çox vaxt özünütənqid və ya özünə tənqidi yanaşma kimi anlaşılsa da, təsəvvüf kontekstində bu anlamın daha geniş əhatəsi vardır. Bir təsəvvüf termini olan nəfsi-ləvvamə hər şeydən əvvəl Tanrıya qarşı məsuliyyəti mərkəzə alan dünyagörüşünün təzahürüdür. Burada peşiman olub, nigarançılıq duyaraq, özünü qınayan fərdin bir nömrəli qayğısı modern cəmiyyətdə inkişaf pillələrini atlaya bilməkdən daha çox Tanrıdan uzaq düşməkdir.

Əgər ləvvamə nəfs əmmarə nəfsdən güclü olarsa, insan daha çox təqvaya meyil edər. Ancaq əksinə əgər əmmarə nəfs güclü olarsa, insan günaha meyil edər. Bu mübarizə və döyüş insanın ömrünün sonuna qədər davam edər. Bu, bitməyən və tükənməyən bir döyüşdür. Bu döyüşdən qalib o kəslər çıxar ki, nəfsi istəklərinə sözün həqiqi mənasında qalib gələr. Nəfsini ağıllarına ram edər və qəlbə hakim olmasına imkan verməz.

Bu məqalədə ələ aldığımız nəfsi-ləvvamə mərhələsində görüldüyü kimi insanın özünü qınayan nəfsinə diqqət edildi. Bu mövzuda psixoloji xüsusiyyətlərinə, Qurani-Kərimdəki yerinə və alimlərin fikirlərinə yer verildi.

## ƏDƏBİYYAT

**1.** Yıldız, A. (2007). *İmam Gazzaliye göre nefis ve nefis eğitimi*. Selçuk Üniversitesi, 189.
**2.** Younis, A. (2021). Kuran ve sünnette şeytan ve nefis. *İhya Uluslararası İslam Araştırmaları Dergisi*, 484-520.
**3.** Bursəvi. (n.d.). *Ruhul-Bəyan* (Vol. 20). Erkam Yayınları, p. 284.
**4.** Sağır, C. (2023). *Tasavvuf* (Vol. 9). pp. 1365-1406.
**5.** Aktay, E. N. (n.d.). Manevi danışmanlık ve rehberlik perspektifinden nefs psikolojisi ve nefs psikoterapisi. *Türk Manevi Danışmanlık ve Rehberlik Dergisi*, 75-110.

**6.** *Minber*. (n.d.). Nəfsin yeddi mərhələsi. Retrieved from https://minber.az/n%C9%99fsin-yeddi-m%C9%99rh%C9%99l%C9%99si
**7.** *Semerkand.* (n.d.). Nefs-i levvame. Retrieved from https://semerkanddergisi.com/nefs-i-levvame/
**8.** *Sirat.* (2022, June 17). Ləvvamə nəfsi nədir?. Retrieved from https://sirat.az/2022/06/17/l%C9%99vvam%C9%99-n%C9%99fsi-n%C9%99dir/
**9.** *Sorularla İslamiyet.* (n.d.). Nefs-i levvame. Retrieved from https://sorularlaislamiyet.com/kaynak/nefs-i-levvame
**10.** *Sibtayn.* (n.d.). Ləvvamə nəfs əmmarə nəfsdən güclü olarsa, insan daha çox təqvaya meyil edər. Retrieved from https://www.sibtayn.com/az/index.php?option=com_content&view=article&id=3414:l%C9%99vvam%C9%99-n%C9%99fs-%C9%99mmar%C9%99-n%C9%99fsd%C9%99n-güclü-olarsa,-insan-daha-çox-t%C9%99qvaya-meyil-ed%C9%99r&catid=222&Itemid=305
**11.** Üzüm, İ. (n.d.). Kiyame suresi. *İslam Ansiklopedisi* (Vol. 25). p. 516.
**12.** Çelik, İ., & Yıldırım, B. (2018). Halvetiyye geleneğinde etvarı-seba/nefsin mertebeleri. *Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi*, 21-44.
**13.** Aydın, M. S. (n.d.). Ahlak. *İslam Ansiklopedisi* (Vol. 2). p. 13.
**14.** Ayiş, M. Ş. (2019). Nefis mertebelerinin psikolojideki karşılıkları üzerine bir değerlendirme: Robert Frager örneği. *Bingöl Üniversitesi, İlahiyat Fakültesi*, 547-567.
**15.** Çağrıcı, M. (n.d.). Ahlak. *İslam Ansiklopedisi* (Vol. 2). p. 1.
**16.** Türer, O. (n.d.). Letaifi hamse. *İslam Ansiklopedisi* (Vol. 27). p. 143.
**17.** Türker, Ö. (n.d.). Nefis. *İslam Ansiklopedisi* (Vol. 32). p. 531.
**18.** Demirdaş, Ö. (2013). Kösec Ahmet Trabzoniye göre nefs ve nefsin kategorileri. *Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi*, 157-181.
**19.** Uludağ, S. (n.d.). Nefis. *İslam Ansiklopedisi* (Vol. 32). p. 529.
**20.** İskeçlier, T. N. (2023). Nefs psikolojisi: Kuram & uygulama. *Türk Manevi Danışmanlık ve Rehberlik Dergisi*, 173-183.
**21.** Aksöz, T. (2016). Modern psikolojik yaklaşımlar açısından nefs arınması. *Doktora Tezi, Sakarya Üniversitesi*, 35.

## REFERENCES

**1.** Yildiz, A. (2007). *The soul and its education according to Imam Ghazali.* Selcuk University, 189. (in Turkish)
**2.** Younis, A. (2021). Satan and the self in the Quran and Sunnah. *Ihya International Journal of Islamic Studies*, 484-520. (in Turkish)

**3.** Bursary. (n.d.). Ruhul-Bayan (Vol. 20). Erkam Publications, p. 284. (in Azerbaijani)
**4.** Saghir, C. (2023). *Sufism* (Vol. 9). pp. 1365-1406. (in Turkish)
**5.** Aktay, E. N. (n.d.). Soul psychology and soul psychotherapy from the perspective of spiritual counseling and guidance. *Turkish Journal of Spiritual Counseling and Guidance*, 75-110. (in Turkish)
**6.** *Pulpit.* (n.d.). The seven stages of the soul. Retrieved from https://minber.az/n%C9%99fsin-yeddi-m%C9%99rh%C9%99l%C9%99si (in Azerbaijani)
**7.** *Semerkand.* (n.d.). Nefs-i levvame. Retrieved from https://semerkanddergisi.com/nefs-i-levvame/ (in Turkish)
**8.** *Sirat.* (2022, June 17). What is lavavama nafs? Retrieved from https://sirat.az/2022/06/17/l%C9%99vvam%C9%99-n%C9%99fsi-n%C9%99dir/ (in Turkish)
**9.** *Sorularla Islamiyet.* (n.d.). Nefs-i levvame. Retrieved from https://sorularlaislamiyet.com/kaynak/nefs-i-levvame (in Turkish)
**10.** *Sibtain.* (n.d.). If the first nafs is stronger than the second nafs, a person will be more inclined to piety. Retrieved from https://www.sibtayn.com/az/index.php?option=com_content&view=article&id=3414:l%C9%99vvam%C9%99-n%C9%99fs-%C9%99mmar%C9%99%20If%20-n%C9%99fsd%C9%99n-is-strong,-a-person-is-more-inclined-to-t%C9%99r%C9%99r&catid=222&Itemid=305 (in Azerbaijani)
**11.** Uzum, I. (n.d.). Surah Qiyamah. *Encyclopedia of Islam* (Vol. 25). p. 516. (in Turkish)
**12.** Chelik, I., & Yildirim, B. (2018). Degrees of flesh-seba/soul in the Halvetiyye tradition. *Turkish Culture and Haci Bektash Veli Research Journal*, 21-44. (in Turkish)
**13.** Aydin, M. S. (n.d.). Morality. *Encyclopedia of Islam* (Vol. 2). p. 13. (in Turkish)
**14.** Ayish, M. Sh. (2019). An evaluation of the psychological equivalents of the soul's levels: The example of Robert Frager. *Bingol University, Faculty of Theology*, 547-567. (in Turkish)
**15.** Chaghrici, M. (n.d.). Morality. *Encyclopedia of Islam* (Vol. 2). p. 1. (in Turkish)
**16.** Turer, O. (n.d.). Letaifi hamse. *Encyclopedia of Islam* (Vol. 27). p. 143. (in Turkish)
**17.** Turker, O. (n.d.). Nefis. *Encyclopedia of Islam* (Vol. 32). p. 531. (in Turkish)

**18.** Demirdash, O. (2013). The soul and its categories according to Kosec Ahmet Trabzoniye. *Ankara University Faculty of Theology Journal*, 157-181. (in Turkish)
**19.** Uludagh, S. (n.d.). Nefis. *Encyclopedia of Islam* (Vol. 32). p. 529. (in Turkish)
**20.** Iskechlier, T. N. (2023). Soul psychology: Theory and practice. *Turkish Journal of Spiritual Counseling and Guidance*, 173-183. (in Turkish)
**21.** Aksoz, T. (2016). Purification of the soul in terms of modern psychological approaches. *Doctoral Thesis, Sakarya University,* 35. (in Turkish)